*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   2 dekabr 2017-ci il   № 91 (2208)   Qiyməti 25 qəpik


Prezident İlham ƏLİYEV:

## Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayıb və barışmayacaq

*Cocuq Mərcanlı kəndinin bərpası xüsusi məna, rəmzi xarakter daşıyır. Onu göstərir ki, Azərbaycan xalqı və Azərbaycan dövləti heç vaxt işğalla barışmayıb və barışmayacaq.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Tərtər rayonunda ictimaiyyətin nümayəndələri və məcburi köçkünlər ilə görüşdə söyləyib.

Dövlət başçısı qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır, dəstəklənir, bütün beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz sözlərini deyiblər. Onların arasında ən mötəbər təşkilat BMT-dir. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Yəni, beynəlxalq aləm bu məsələ ilə bağlı öz sözünü deyib. Tarixi ədalət də bizim tərəfimizdədir.

"Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır, bunu tarixi həqiqətə əsaslanıb deyirdim. Bizim ümumi işimiz ondan ibarətdir ki, bütün dünya bunu bilsin və artıq biz bunu görürük. Bizim səylərimiz və yorulmaz fəaliyyət nəticəsində dünyada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birmənalı fikir formalaşıb", - deyə Prezident vurğulayıb.

Azərbaycan Prezidenti qeyd edib ki, bu yaxınlarda Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvə görüşündə qəbul edilmiş yekun Bəyannamədə də Şərq Tərəfdaşlığına üzv ölkələrin suverenliyi, ərazi bütövlüyü bir daha təsdiqlənib və dəstəklənib. Bu, bizim böyük diplomatik nailiyyətimizdir. Ona görə münaqişənin həlli yolları bu tarixi həqiqətə, ədalətə və beynəlxalq hüquqa əsaslanmalıdır. "Əminəm ki, belə də olacaq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Heç vaxt biz imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın", - deyə dövlət başçısı əlavə edib.

## Bakı Bəyannaməsində dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə qəti dəstək ifadə olunub

Azərbaycan, Pakistan və Türkiyə xarici işlər nazirlərinin birinci üçtərəfli görüşünün nəticəsi olaraq imzalanmış Bakı Bəyannaməsində nazirlər dövlətlərin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə qarşılıqlı hörmət və qəti dəstəyi bir daha bəyan ediblər və öz ərazilərindən bir-birilərinə qarşı fəaliyyət məqsədilə istifadə edilməyəcəyini vurğulayıblar.

*Ön xətdən reportaj*

# "İşğalın sonuna az qalıb, Vətən!"



*Azərbaycan Silahlı Qüvvələrində son illərdə aparılan islahatlar, maddi-texniki bazanın gücləndirilməsi ordunun irimiqyaslı inkişaf yolundan xəbər verir. Həyata keçirilən təlimlər həm təminat baxımından, həm də döyüş qabiliyyətinin möhkəmləndirilməsinə görə bütün qoşun növlərinin bərabər səviyyəli inkişafının göstəricisidir. Bu gün iftixarla söyləyə bilərik ki, ordumuz xalqın güvənc yeridir.*

Axşama doğru "N" hərbi hissəsinin zenit-raket-artilleriya bölməsinə çatanda adi xidmət günlərindən biri idi. Günün nizam qaydasına uyğun olaraq hər kəs öz işi ilə məşğul olurdu. Dağlara çökən duman, qış küləyiylə birgə gələn şaxta ətrafda nəzərə çarpan səliqə-sahmanı, əsgərlərin üzündəki məğrurluğu poza bilmirdi. Vaxt itirmədən şəxsi heyətlə söhbətləşirəm.

- Bölməmiz öz vəzifələrinin icrası ilə məşğuldur, - bizimlə səmimi söhbətə başlayan zabit Nofəl Şahbazov deyir. - Ön xətdə döyüş növbəsi aparmaqla bərabər mütəmadi olaraq ixtisas bacarıqlarımızı da artırırıq.

Zabit Nofəl Şahbazovu ön xətdəki hərbi hissələrdən birindən tanıyıram. Bacarıqlı hərbçi kimi yaddaşıma həkk olunub. İlk tanıdığım vaxtlardan onun işinə necə məsuliyyətlə yanaşdığının, əsgərlərin döyüşçü kimi formalaşmaları üçün əlindən gələni etdiyinin, bütün bilik və bacarıqlarını komandir olaraq əsgərlərə aşıladığının şahidi olmuşam.

- Tək əsgər yox, Azərbaycanda dünyaya göz açan hər bir insan Vətən üçün yaşamalı, torpağı sevməli, bu sevgi uğrunda hər gün, hər an canından keçməyi özünə borc bilməlidir. Ürəyimizdəki Vətən sevgisi ilə torpağımıza qəsd edənlərə qənim kəsilməliyik. Bu yoldan, bu məqsəddən dönər olsaq, analarımızın haqqı bizə haram olsun, - zabit Şahbazov deyir.

Əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığı haqqında isə zabit Anar Nəzərov danışır.

(Ardı 3-cü səhifədə)

# Müdafiə naziri Türkiyənin Hərbi Hava Qüvvələrinin komandanı ilə görüşüb

*Noyabrın 30-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Hasan Küçükakyüz ilə görüşüb.*



General H.Küçükakyüzün rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə güllər düzülüb.

Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar. Sonra nümayəndə heyəti Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsi önünə əklil qoyub.

Müdafiə Nazirliyində geniş tərkibdə keçirilən görüşdə Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafı, eləcə də Hərbi Hava Qüvvələri arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

İki qardaş dövlətin rəhbərləri və xalqlarımız tərəfindən daim dəstəklənən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının genişləndirilməsinin vacibliyinin vurğulandığı görüşdə təcrübə mübadiləsi məqsədilə hərbi mütəxəssislərdən ibarət ekspert qruplarının qarşılıqlı səfərlərinin, eləcə də Quru Qoşunları, o cümlədən Hərbi Hava Qüvvələrinin iştirakı ilə keçirilən birgə təlimlərin sayının artırılması və maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Cəbhəboyu zonadakı raket və artilleriya bölmələrinin döyüşə hazırlıq səviyyəsi yoxlanılıb



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin göstərişinə əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhəboyu zonada yerləşən raket və artilleriya bölmələrinin döyüşə hazırlıq səviyyəsini yoxlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müxtəlif hərbi hissələrin saxlanclarında qorunan artilleriya sistemləri, eləcə də eşelonlaşdırılmış ehtiyat sursat, mərmilər və digər texniki vasitələrə baxış keçirilib.

Müdafiə naziri raket və artilleriya qoşunlarının döyüşə hazırlıq səviyyəsinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.



# Türkiyəli general Azərbaycanın HHQ-nin aviabazalarını ziyarət edib

*Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Hasan Küçükakyüzün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycanın və Türkiyənin Hərbi Hava Qüvvələri arasında əməkdaşlığın hazırkı vəziyyəti, genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Türkiyə nümayəndə heyəti Azərbaycanın Hərbi Hava Qüvvələrinin aviabazalarını da ziyarət edib. Qonaqlara aviabazaların fəaliyyəti barədə ətraflı məlumat verilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 dekabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 130 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Silahlı Qüvvələrin Baş Klinik Hospitalı iki hərbi qulluqçu ailəsinə sevinc hissi yaşadıb



*Noyabrın 27-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında ilk dəfə olaraq iki oğlan uşağı dünyaya gəlib. Yeni yaradılan Akuşer-ginekologiya bölməsində eyni gündə iki doğuş həyata keçirilib. Uşaqların hər ikisinin ataları döyüş bölgəsində xidmət edən hərbi qulluqçulardır.*

Birinci körpənin atası Rahid Abbasov "N" hərbi hissəsində bölük komandirinin şəxsi heyət üzrə müavinidir. Anası Turanə Abbasova evdar qadındır. Onlar 2013-cü ildə ailə qurublar. Yeni doğulan körpə ailənin ikinci övladıdır.

İkinci körpənin atası Ayaz Mahmudov "N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur, kiçik çavuşdur. Anası Oksana Mahmudova evdar qadındır. Onlar isə 2015-ci ildən ailəlidirlər. Silahlı Qüvvələrin Baş Klinik Hospitalında dünyaya gələn oğlan uşağı ailənin ilk övladıdır.



Noyabrın 28-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə nazir müavini general-leytenant Kərim Vəliyev Silahlı Qüvvələrin Baş Klinik Hospitalında körpələrə baş çəkib, onların valideynlərini təbrik edib, qayğıları ilə maraqlanıb.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalında ilk dəfə dünyaya gələn hər iki körpənin ailəsinə Müdafiə Nazirliyinin rəhbərliyi adından hədiyyələr təqdim olunub.

Bölmə rəisi, həkim Yaqut İbrahimova deyib ki, uşaqların biri təbii doğuşla, biri isə qeysəriyyə üsulu ilə dünyaya gəlib. Hər iki körpənin vəziyyəti yaxşıdır. Doğuşlar normal həyata keçirilib. Analar da özlərini yaxşı hiss edirlər. "Bizə göstərdiyi xüsusi diqqət və qayğıya görə Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya minnətdarlığımızı bildiririk. Bu gün ölkəmizdə baş verən hər bir yeniliyə, hər bir müvəffəqiyyətə görə dövlətimizin başçısının müdrik və uzaqgörən siyasətinə borcluyuq", - deyə o qeyd edib.

Baş leytenant Rahid Abbasov deyib: "Bu gün ailəmizin, yaxınlarımızın sevincli, fərəhli günüdür. İkinci övladımız dünyaya gəlib. Oğlan övlad həm də sabahın əsgəridir. Mən zabit olaraq buna da çox sevindim. Çalışacağam ki, onu Vətənimizə layiqli övlad olaraq yetişdirim. Bu sevincli anlarımızda hərbçi ailəsinə belə bir diqqət olduqca qürurvericidir. Həmişə zabitlərə, hər əsgərə diqqətin və qayğının şahidi olmuşuq.

Biz Ali Baş Komandanımızın diqqət və qayğısının cavabını həmişə nümunəvi xidmətimizlə təsdiqləməyə çalışırıq. Bu qayğıya görə dövlətimizin başçısına minnətdaram".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Ayaz Mahmudov bildirib: "Dövlətə, dövlətçiliyimizə bağlılığımla və Azərbaycan Ordusunda hərbi xidmətimlə həmişə fəxr etmişəm.

Bu gün həyatımın ən əlamətdar günlərindən biridir. Oğlan övladımız, Azərbaycan Ordusunun gələcək əsgəri dünyaya gəlib. Bu, həm əvəzedilməz bir hissdir, həm də məndə məsuliyyət hissini iki qat artırır.

Çalışacağam ki, o, böyüyəndə Vətənə layiqli övlad olsun. Ailəmiz adından Ali Baş Komandanımıza minnətdarlığımı bildirirəm".

2017-ci ilin martında Prezident, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən Müdafiə naziri Ginekologiya bölməsini ziyarət edib və onun fəaliyyətə başlaması barədə müvafiq tapşırıqlar verib. Tamamlama işləri və bölmənin ən müasir avadanlıqlarla təmin edilməsi prosesi başa çatdıqdan sonra artıq peşəkar həkim kollektivi ilə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Akuşer-ginekologiya bölməsi qadın hərbi qulluqçular, hərbçilərin ailə üzvləri və mülki şəxslərə xidmət göstərməkdədir. Bölmədə yaradılan şərait müasir standartlara cavab verən tibbi xidmət göstərilməsinə, dünyaya göz açan körpələrin sağlam doğulmasına tam imkan verir. Akuşer-ginekologiya bölməsinin həkim kollektivinin peşəkar iş birliyi nəticəsində noyabrın 27-də bölmədə iki sağlam oğlan uşağı dünyaya göz açıb və bu da Azərbaycan hərb təbabətində yeni bir uğurdur.

**"Azərbaycan Ordusu"**

# "İşğalın sonuna az qalıb, Vətən!"



(Əvvəli 1-ci səhifədə)

- Şəxsi heyəti döyüşə hazır vəziyyətə gətirmək üçün mütəmadi dərslər keçirilir, hərbi hissə komandanlığı bu işin sistemli təşkilinə daim nəzarət edir. İctimai-siyasi hazırlıq dərslərində Azərbaycan tarixində iz qoymuş milli qəhrəmanlar, ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyaları, Vətən, torpaq sevgisi əsgərlərimizin nəzərinə çatdırılır. Bu gün düşmənlə üzüzə xidmət edən hər bir zenitçi döyüşə atılmağa, düşmənin hədəflərini məhv etməyə hazırdır.

Zabitlərlə söhbətimizi davam etdirərək döyüş növbətçiliyində olan zenitçilərin yanına çatırıq.

Leytenant Rövşən Əliyevin zenit qurğusunun qarşısında dərs keçdiyinin şahidi oluruq. İlk baxışdan məsuliyyətli və bacarıqlı olduğu diqqət çəkir.

- Şirvan şəhərində sadə bir kəndli ailəsində dünyaya göz açmışam. Ailədə yeganə hərbçi mənəm. Atam həmişə hərbçi olmağımı arzulayıb. Atamın bu arzusu, həmçinin torpaqlarımızın işğalda olması, hərb sahəsinə olan marağım bu yolu tutmağıma səbəb oldu. Seçdiyim yoldan, tutduğum peşədən razıyam. Vətənin hər qarışı uğrunda canımı verməyə hazıram.

2010-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə sənədlərini verən Rövşən ilkin hərbi təhsilə yiyələnir. Təcrübəli müəllimlərdən hərb peşəsinin incəliklərini öyrənir. Leytenant rütbəsini aldıqdan sonra ön xətdəki hərbi hissələrdən birinə yollanır. Və hazırda da Vətənin keşiyindədir.

- Düşmənin hava hücumunun qarşısını almaq üçün hərbi hissənin cavabdeh olduğu sahədə döyüş növbətçiliyi təşkil edilib, - leytenant Rövşən Əliyev deyir. - Əvvəlcədən hazırlanmış start mövqeyində zenitçilər gün ərzində döyüş növbəsi aparırlar. Əgər düşmənin uçan obyekti hərbi hissənin müdafiə rayonunda görünərsə, zenit-raket komplekslərindən açılan atəşlə məhv ediləcək.

- Hər birimiz döyüşə hazırıq, - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nicat Nuriyev deyir. - Gördüyünüz zenit qurğusu düşmənin helikopterlər və pilotsuz uçuş aparatlarını, həmçinin yüngül zirehli texnikalarını, canlı qüvvəsini məhv etmək üçün istifadə olunur. "Döyüşə!" komandası verilərkən heyətlər dərhal öz yerini tutur. Manqa komandiri olaraq hədəfin növü, hədəfə qədər olan məsafə, hədəflərarası dərinlik və istiqamət barəsində məlumat verərək hədəfi məhv etmək üçün komanda verilir.

Əsgər Nicat Cavadov heyət nəfərlərindən biridir. Tutduğu vəzifənin öhdəsindən layiqincə gəldiyini, ömrünün geridə qalan hissəsini də ordu sıralarına bağlamaq istədiyini deyir.

- Xidmət müddətimdə silah-texnikanın sirlərini öyrənməklə yanaşı, yaxşı dostlar qazanmışam. Hazırda heyət nəfəri olaraq ön xətdə xidmətimdən qürur duyuram. Xidmətimin bitməsinə az müddət qalmasına baxmayaraq, torpaqlarımız işğaldan azad olunana kimi Vətənim üçün xidmət etmək arzusundayam.

Tuşlayıcı əsgər Nurlan Mehrəliyev isə Bakı şəhərindən hərbi xidmətə çağırılıb.

- Tuşlayıcı olaraq müəyyən olunmuş komanda ilə müşahidə aparır, manqa komandirinin verdiyi məlumatlara uyğun olaraq hava və ya yerüstü hədəfləri məhv etməyə hazıram. Cavabdeh olduğumuz hava məkanını düşmən əsla poza bilməz, əgər buna cəhd edərsə, düşmən helikopterini məhv edən manqa komandiri İlkin Muradov kimi onları ağır itkiyə məruz qoyarıq.

Doldurucu əsgərlər Elçin Hüseynov və İlkin İsgəndərov da ön xətdə xidmət etməyin məsuliyyətini dərk etdiklərini bildirirlər.

- Hərbi xidmət adama Vətən sevgisi, döyüş bacarığı aşılayır, - İlkin İsgəndərov deyir. - Uşaq yaşlarımdan ədəbiyyata marağım olsa da, əsgərlikdə olduğum müddətdə hərbi vətənpərvərlik ruhunda şeirlər yazmağa başlamışam. "Qarabağa azadlıq" şeirim əsgər yoldaşlarım və komandirlərim tərəfindən rəğbətlə qarşılanıb.

Elçin isə deyir ki, hərbi xidmət, doğrudan da, kişilik məktəbidir. İnsan dözümlü olmağı, silahdan istifadə etməyi mənimsəyir. Torpaqlarımız mənfur qonşular tərəfindən işğal olunub. Qoy düşmən bilsin ki, heç bir azərbaycanlı torpaqlarının işğalda olması ilə razılaşmayıb, razılaşmayacaq....

Vətən sevgisinin istisinə şaxtalı havada qızınan ürəklər mənfur düşmən qarşısında qələbə musiqisinə köklənib... Tezliklə bu musiqi sədaları altında üçrəngli bayrağımız Vətənimizin hər yerində qürurla dalğalanacaq...

Hər əsgər baxışı deyir ki, işğalın sonuna az qalıb, Vətən!

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu", fotolar C.CƏFƏROVUNDUR**



*Noyabrın 28-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə "Müdafiə və təhlükəsizlik" mövzusunda elmi-praktik konfrans keçirilib.*

# Silahlı Qüvvələrin Hərbi Akademiyası Bilik Fondu ilə birgə "Müdafiə və təhlükəsizlik" mövzusunda konfrans keçirib

Silahlı Qüvvələrin Hərbi Akademiyasında iki qurum arasında imzalanmış əməkdaşlıq haqqında sazişə əsasən keçirilən konfransda Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş zabit və əsgərlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət himni səsləndirilib.

Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev konfransın gündəliyi haqqında iştirakçılara məlumat verib. General-leytenant ordumuzun müasir tələblərə cavab verən silah və texnika ilə mütəmadi təmin olunduğunu qeyd edib, müdafiə və təhlükəsizlik prinsiplərinin yüksək səviyyədə qurulduğunu diqqətə çatdırıb, ümummilli lider Heydər Əliyevin ordunun hərbi potensialının artırılması sahəsində atdığı addımlardan, Silahlı Qüvvələrdə həyata keçirilən quruculuq işləri və struktur dəyişikliklərindən, hərbi hazırlığa elmi yanaşmanın vacibliyindən danışıb.



Bilik Fondunun icraçı direktoru Oqtay Səmədov Azərbaycan xalqının zəngin hərbi-tarixi ənənələrinə sadiqliyindən söz açıb, ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələrinin bu gün NATO standartlarına cavab verən səviyyədə olduğunu xüsusi vurğulayıb, fondun Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilmələri istiqamətində həyata keçirdiyi tədbirlərdən danışıb və bu işdə Hərbi Akademiyanın kadr potensialından geniş istifadə olunduğunu bildirib.

Hərbi Təhsil İdarəsi hərb elmi şöbəsinin rəisi, professor Əziz Talıbov və Silahlı Qüvvələrin Hərbi Akademiyasının adyunktura və elm şöbəsinin dosenti Şahrza Ağayev konfransın əhəmiyyətindən danışıb, ölkəmizin inkişafında sabitlik, dinamik iqtisadi irəliləyişlə yanaşı, güclü ordu quruculuğunun da vacibliyini vurğulayıblar. Bildirilib ki, son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

Plenar iclasın sonunda Bilik Fondunun icraçı direktoru O.Səmədov və Hərbi Akademiyanın rəisi general-leytenant H.Piriyev hər iki qurumun 2018-ci il üçün Birgə Fəaliyyət Planını imzalayıblar.

Konfrans "Hərb məharəti və maddi-texniki təminat", "Texniki elmlər", "Hərbi pedaqogika", "Hərbi humanitar elmlər", "Milli təhlükəsizlik", "Müharibə və hərbi hüquq", "Hərbi təbabət" bölmələri üzrə elmi məruzələrlə davam edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Cəbhəboyu zonadakı hərbi hissələrdə psixoloji maarifləndirmə tədbirləri



*Cəbhəboyu zonada yerləşən hərbi hissələrdə psixoloji sahədə maarifləndirmə mövzusunda tədbirlər keçirilib.*

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin hərbi hissələrdə keçirdiyi görüşlərdə polkovnik-leytenant Rasim Manafov, polkovnik-leytenant Vüsal Hüseynov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin müdir müavini Elmar Fətəliyev, Gəncə şəhəri "Şah Abbas" Cümə Məscidi Dini İcmasının sədri Hacı Əlisəftər Səfərəliyev, psixoloqlar Zahid Tağıyev və Oqtay Verdiyev təşkil olunan tədbirlərin mahiyyəti, məqsədləri barədə məlumat verərək psixoloji maarifləndirmə istiqamətində məruzələrlə çıxış ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi hissələrin müvafiq komandir-rəis heyəti ilə "Gənc əsgərlərin fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi" mövzusunda keçirilən təlim-metodiki məşğələlərdə xidmətə yeni çağırılmış hərbi qulluqçularla fərdi-psixoloji işə dair təlimat və tövsiyələr verilib.



Hərbi hissələrin şəxsi heyətlə iş üzrə zabitləri və psixoloqları ilə keçirilən təlim-metodiki toplantıda polkovnik-leytenant Vüsal Hüseynov "Psixoloji müşahidələrin aparılması metodikası", dövlət qulluqçusu Elçin Umudov "Stressə üstün gəlmək və vaxtında qarşısını almaq üsulları" mövzularında seminar məşğələləri keçirərək hərbi qulluqçulara metodiki materiallar təqdim ediblər.

*Bu gün regionun ən qüdrətli ordusuna malik olan Azərbaycan Cənubi Qafqazda ən güclü artilleriya sistemlərinə sahibdir. Ordumuzun arsenalında düşməni qorxu içində saxlayan, hədəfləri yüksək dəqiqliklə məhv edə bilən, böyük dağıdıcı gücə malik raket-artilleriya sistemləri mövcuddur. Təbii ki, bu sistemlər döyüş vərdişləri daim təkmilləşdirilən hərbi qulluqçularımızın istifadəsindədir. İstənilən hədəfi dəqiq məhv etməyə qadir olan Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları keçirilən təlimlərdə bütün döyüş tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirirlər.*

# Artilleriyaçılarımız düşməni darmadağın etməyə qadirdir



Bu günlərdə 2017-ci ilin döyüş hazırlığı planına əsasən, Əlahiddə Ümumqoşun Ordu üzrə "Ən yaxşı artilleriya batareyası" adı uğrunda yarış keçirilib. Əvvəlcə yarışda iştirak etmək hüququ qazanan artilleriya batareyalarının tədris-material bazası və şəxsi heyətin təchizatı yoxlanılıb. Batareya komandirləri tapşırıq aldıqdan sonra əvvəlcədən hazırlanmış atəş mövqeyinin tutulması üçün heyətlərə döyüş tapşırığı veriblər. Sonra fərdi və qrup halında normativlərin yerinə yetirilməsi yoxlanılıb.

Normativləri yerinə yetirən şəxsi heyətə yeni atəş mövqeyinin tutulması tapşırığı verilib və artilleriyaçılar yerdəyişmə ediblər. Yeni atəş mövqeyində tapşırıqların yerinə yetirilməsilə yarış başa çatıb. Ümumi nəticələrə əsasən "N" hərbi hissəsinin artilleriya batareyası birinciliyin qalibi olub.

Əlahiddə Ümumqoşun Ordu üzrə "Ən yaxşı artilleriya batareyası" adına yiyələnən "N" hərbi hissəsinin zabitlərindən Samir İsmayılov, Məhəmməd Qulubəyli, Eşqin Məmmədov və digərləri qələbə uğrunda mübarizədə fərqləniblər. Top komandirlərindən kiçik çavuş Şükür Alməmmədov, əsgərlərdən Qüdrət Həsənli, Rövşən Əsgərli, Samiq Mamedov, Nadir Zərbəliyev, Fərid Əlizadə, Əli Şabanov və digərləri heyət nəfəri, tuşlayıcı, topogediz, sürücü kimi öz vəzifələrinin öhdəsindən layiqincə gələrək birinciliyin qazanılmasında mühüm rol oynayıblar.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi,
foto
əsgər
Rauf ƏLƏSGƏROVUNDUR**

# Ali Hərbi Məktəbin kursantları təlim atışları keçirib



*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin (AAHM) kursantlarının tədris planına və proqramına uyğun olaraq "Qaraheybət" Təlim Mərkəzində şəxsi heyətin bütün ixtisaslar üzrə intensiv hazırlığı həyata keçirilir.*



Gecə və gündüz təlim sahələrində, avadanlıqla təchiz edilmiş yerlərdə, həmçinin atış poliqonlarında gələcəyin zabitlərinin hazırlığı aparılır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim atışlarının təşkili və icrası qoşunlarda xidmətin ilk günündən tələb olunan metodiki və praktiki vərdişlərin aşılanmasının nəzərə alınması ilə keçirilir.

# Əlahiddə Ümumqoşun Orduda snayperlərin təlim toplantısı keçirilir

*2017-ci ilin döyüş hazırlığı planına əsasən, Əlahiddə Ümumqoşun Orduda snayperlərin təlim toplantısı keçirilir.*



Toplantıda əsas diqqət çətin relyef və kəskin iqlim şəraitinə malik olan Naxçıvan Muxtar Respublikası ərazisində fəaliyyət göstərmək üçün şəxsi heyətə yüksək dözümlülük, təmkinlik, fiziki hazırlıq kimi xüsusiyyətlərin aşılanmasına yönəldilib.

Məşğələlər zamanı hədəfin aşkar edilməsi, ona gizli yaxınlaşma, atəş mövqeyi seçmə, maskalanma, atəş üçün ilkin məlumatların hazırlanması, sərrast atəşlə şərti hədəfin məhv edilməsi və digər fəaliyyətlər məşq etdirilir.

Bölmələrin silahlanmasındakı müxtəlif ölkələrin, eləcə də milli müdafiə sənayemizin istehsalı olan müasir snayper tüfəngləri tapşırıqdan, ərazidən, məsafədən və digər faktorlardan asılı olaraq hərbi qulluqçular tərəfindən təyinatına görə tətbiq olunur.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissə**

# Tank əleyhinə idarəolunan raketlərdən atışlar icra edilib

*Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində şəxsi heyətin sürücülük və atış qabiliyyəti praktik olaraq daha da artırılır ki, təlim və döyüş meydanında hədəflər ilk atəşlə məhv edilsin. Trenajorlarda keçirilən dərslərdə döyüş sursatı, yanacaq və digər maddi vəsaitlər sərf etmədən, vaxtdan səmərəli istifadə edilərək hərbi qulluqçuların nəzəri və praktiki bilikləri daha da artırılır. Buna misal olaraq tank əleyhinə bölmələrin cəlb edildiyi məşğələ və təlimləri qeyd etmək olar.*



2017-ci ilin döyüş hazırlığı planına əsasən, təlim mərkəzində tank əleyhinə bölmələrin şəxsi heyətinin intensiv hazırlığı istiqamətində tədbirlər həyata keçirilib. Bölmələrin sərəncamında olan mövcud silahlarla yanaşı, tank əleyhinə idarə olunan raket komplekslərindən döyüş atışları hazırlığı üzrə taktiki məşqlər aparılıb.

Tank əleyhinə bölmələr "Həyəcan" siqnalı ilə qaldırılaraq cəmləşmə rayonuna çıxarılıb, maskalanma və fortifikasiya tədbirləri görülüb. Növbəti siqnalla bölmələr şərti düşmən tanklarına qarşı mübarizə aparıblar. Praktiki atışlar zamanı hədəflər dəqiqliklə məhv edilib.

Praktiki atışlardan sonra zabitlərdən Emil Hüseynov, Babək Hüseynov, Nicat Mehdili, Eşqin İsmayılov və digərləri ilə həmsöhbət olan zaman bildirdilər ki, təlim zamanı əsas diqqət tank əleyhinə bölmənin şəxsi heyətinin döyüş hazırlığı, qarşılıqlı fəaliyyəti, mənəvi-psixoloji vəziyyəti, zirehli texnikaya qarşı mübarizə üsullarının aparılması məsələlərinə yönəldilib. Təlimlərə cəlb olunan şəxsi heyətin nəzəri, praktiki və psixoloji hazırlığı yoxlanılır, tapşırıqların daha operativ və səmərəli yerinə yetirilməsi, qarşıya qoyulan vəzifələrin icra olunması səviyyəsi öyrənilir.

Zabitlər nümunəvi xidməti ilə seçilən hərbi qulluqçuların adlarını da qeyd etdilər. Onlardan kiçik çavuşlar Hüseyn Əliyev, Təbriz Həsənov, Raman Əliyev, Əli Hüseynli, Sultan Gözəlov, nümunəvi xidmətləri ilə komandirlərinin etimadını qazanan əsgərlərdən Rəmmal Ağamalıyev, Əlniyaz Xanmədov, Murad Həsənov, İlkin Qarayev, Murtuz Əkbərli, Famil Kərimov və digərləri haqqında ürəkdolusu danışdılar.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi,**
**foto**
**əsgər**
**Rauf ƏLƏSGƏROVUNDUR**

# İran parlamentindən Ermənistana tələb: Araz çayını zəhərləməyin!

*İran İslam Şurası Məclisində (parlament) Ermənistan hökuməti kəskin tənqid edilib.*

AZƏRTAC xəbər verir ki, İran parlamentinin deputatları Ermənistan tərəfindən Araz çayının çirkləndirilməsini narahatlıqla qarşılayıb və hökumətdən bunun qarşısının alınmasını tələb ediblər.

İran parlamentinə Ərdəbil vilayətindən seçilmiş deputat Şahhur Purhüseyn çıxışında bildirib ki, Ermənistan ətraf mühitin qorunması istiqamətində heç bir iş görməyərək Araz çayının suyunu çirkləndirir. Onun sözlərinə görə, İranın Ərdəbil vilayətinin Muğan rayonunda əhali arasında xərçəng xəstəliyinin artmasına səbəb Ermənistandır.

Deputat nəzərə çatdırıb ki, Ermənistan radioaktiv tullantıları çaya axıtmaqla İrana böyük ziyan vurur.

Qeyd edək ki, İranın Araz çayı boyunca əraziləri münbit torpaqlardır. Burada əkinçilik geniş inkişaf edib. Yerli fermerlər suvarma suyunu məhz Araz çayından götürürlər. Çayın suyunun isə Ermənistan tərəfindən zəhərli maddələrlə çirkləndirilməsi nəinki məhsuldarlığı dəfələrlə aşağı salır, eyni zamanda, əhali arasında onkoloji xəstəliklərin artmasına səbəb olur.

İran parlamentində Ermənistanın Araz çayını zəhərləməsi haqqında müzakirələrin aparılması birinci dəfə deyil. Ötən il də bir qrup deputat hökumətdən çayın çirkləndirilməsi ilə əlaqədar Ermənistana ciddi xəbərdarlıq olunmasını tələb edib.

# "Azərbaycanın beynəlxalq arenada rolu getdikcə daha da artır"

*Bugünkü görüşümüzün əsas məqsədi ölkələrimiz arasındakı əlaqələri daha da inkişaf etdirməyin yolları barədə müzakirələr aparmaq idi. Ticarət dövriyyəsi daha da inkişaf etdirilməlidir. Xüsusilə müdafiə sahəsində əməkdaşlığı gücləndirə bilərik. Biz bu sahədə bir-birimizi dəstəkləyirik.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Bakıda üçtərəfli görüşün nəticələrinə dair mətbuat konfransında deyib.

Nazir görüşdə bu formata hər üç ölkənin parlamentarilərini də cəlb etmək barədə razılıq əldə edildiyini bildirib. "Biz Qarabağ, Kəşmir və Kipr məsələsinin həllində daha çox həmrəy olmalı və bir-birimizə dəstək zamanı heç nədən çəkinməməliyik. Qarabağ və Kəşmir məsələsində qardaş Azərbaycanın və qardaş Pakistanın daim yanındayıq. Biz terrorçuların İslamı əllərində vasitəyə çevirmələrinə imkan verməyəcəyik", - deyə nazir qeyd edib.

Mövlud Çavuşoğlu Azərbaycanın beynəlxalq arenada rolunun getdikcə daha da artdığını, önəmli aktora çevrildiyini vurğulayıb.

## Lvovda Azərbaycan Xalq Cümhuriyyətinin generalının qəbirüstü abidəsi yenidən qurulub



Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər nazirinin müavini olmuş general-mayor Məhəmməd Sadıq bəy Ağabəyzadənin Ukraynanın Lvov şəhəri qəbiristanlığındakı qəbirüstü abidəsi yenidən qurulub.

AZƏRTAC xəbər verir ki, abidə Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü və Azərbaycan Daxili İşlər Nazirliyinin dəstəyi ilə yenidən qurulub.

Abidənin açılış mərasimində Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev, diaspor fəalları və Lvov şəhərinin ictimai fəalları iştirak ediblər.

Bu abidənin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə töhfə olduğunu deyən səfir bildirib ki, Məhəmməd Sadıq bəy Ağabəyzadənin həm peşəkar hərbçi, həm alim kimi Azərbaycan dövləti, xalqı qarşısında böyük xidmətləri olub. Bu cür şəxsiyyətlərin adının əbədiləşdirilməsi olduqca önəmlidir.

"Ağabəyzadə ömrünün bir hissəsini Lvov şəhərində yaşayıb və burada da dəfn olunub. O, 1927-ci ildən Lvov Universitetinin fəlsəfə fakültəsində işləyib, türk, fars və ərəb dillərini tədris edib. Tanınmış şərqşünaslar, alimlər Teofil Volodarski, Olqa Bak, Tadeuş Levitsin, Ziqmunt Smoqojevski, Kotviç və başqaları həmyerlimiz, professor Məhəmməd Sadıq bəy Ağabəyzadənin yetirmələri olub", - deyə səfir əlavə edib.

Xatırladaq ki, Məhəmməd Sadıq bəy Ağabəyzadə 1865-ci il martın 15-də Bakı quberniyasının Göyçay şəhərində dünyaya gəlib. 1883-cü ildə Bakı real məktəbini bitirdikdən sonra Peterburq şəhərində II Konstantinov hərbi məktəbinə daxil olub.

1886-cı ildə Qafqazda podporuçik (çar ordusunda hərbi rütbə) rütbəsində xidmət etməyə başlayıb. 10 il keçdikdən sonra Sankt-Peterburq şəhərində baş ştab nəzdində Şərq Dilləri İnstitutuna qəbul olunub. Həmin institutu bitirdikdən sonra 1899-cu ildə hərbi xidmət keçmək üçün Türküstan vilayətinə göndərilib. 1913-cü ildə Məhəmməd Sadıq bəy səhhətinə görə general-mayor rütbəsində istefaya çıxıb.

Lakin I Dünya müharibəsi onun həyatını dəyişib. Məhəmməd Sadıq bəy andına sadiq qalaraq müharibəyə könüllü yollanıb, Qafqaz, sonra isə Ukrayna cəbhəsində döyüşlərdə iştirak edib. 1918-ci ilin 23 oktyabrında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə Məhəmməd Sadıq bəy daxili işlər nazirinin müavini vəzifəsinə təyin edilib. Bu vəzifədə o, 1919-cu ilin dekabrına qədər fəaliyyət göstərib.

1927-ci ilin fevralında Ziqmunt Smoqojevskinin dəvəti ilə Lvov şəhərinə köçüb.

1944-cü il oktyabrın 9-da Lvovda vəfat edib.

# Ən yaxşı tabor komandirləri adı uğrunda yarışlar keçirilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2017-ci ilin döyüş hazırlığı planına əsasən, poliqonlarda və təlim mərkəzlərində müxtəlif ixtisaslar üzrə tabor, divizion və onlara bərabər tutulan bölmələrin ən yaxşı komandirlərinin müəyyən edilməsi məqsədilə müsabiqələr keçirilir.



Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin yaydığı məlumata əsasən, yarışlar çərçivəsində Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi tərəfindən "Qaraheybət" Təlim Mərkəzində "Ən yaxşı motoatıcı tabor komandiri" adı uğrunda müsabiqə təşkil olunub.

Hazırlıq məşqləri zamanı komandirlərin taktiki, atəş, fiziki hazırlığı və döyüş maşınlarının idarə edilməsi üzrə nəzəri bilikləri, eləcə də praktiki vərdişləri yoxlanılıb. Eyni zamanda zabitlərin döyüş zamanı tabeliklərində olan bölmələri idarəetmə bacarıqları da qiymətləndirilib.

Bütün iştirakçılar yoxlanılan suallar üzrə yüksək bilik və bacarıq nümayiş etdirərək yaxşı qiymətlər alıblar.

Yarışların nəticələri obyektiv qiymətləndirilərək müəyyən edilmiş qaliblər mükafatlandırılmaları üçün yuxarı komandanlığa təqdim ediləcək.

## Dekabrın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il dekabrın 1-dək 87.032.400,63 manat, 212.873,88 ABŞ dolları, 9236 avro və 5000 rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Aprel döyüşləri qürur yerimiz, tariximiz və qalibiyyətimizdir



Qəhrəmanlıq haqqında belə bir deyim var: "Anadan olanda heç kim dünyaya qəhrəman kimi gəlmir. Qəhrəmanlar döyüşdə doğulur". Bu baxımdan 2016-cı ilin aprelində Silahlı Qüvvələrimizin şəxsi heyəti düşmənə layiqli cavab verərək ordumuzun hansı gücə və potensiala malik olduğunu göstərdi. Düşmən hücumlarına layiqli cavab verən igidlərimiz torpaqlarımızın sahibsiz olmadığını bir daha sübut etdilər.

Bu günlərdə Azərbaycan Hərb Tarixi Muzeyinin və Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Jurnalist Ekspert Mərkəzi İctimai Birliyinin "Aprel döyüşləri qəhrəmanlarının şücaətini əks etdirən rəsmlərin yeniyetmə rəssamlar tərəfindən çəkilməsi və sərgilənməsi" layihəsinin təqdimat mərasimi keçirildi.

Tədbirdə millət vəkilləri, aprel şəhidlərinin ailə üzvləri, Azərbaycan Dövlət Uşaq Filarmoniyasının və ictimaiyyətin nümayəndələri, xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları, rəssamlar və məktəblilər iştirak edirdilər.

Öncə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Layihənin rəhbəri Jurnalist Ekspert Mərkəzi İctimai Birliyinin sədri Ceyhun Musaoğlu tədbir iştirakçılarını salamlayaraq, şəhidlərə cəmiyyətimizdə daim hörmət və ehtiram göstərildiyini bildirdi.

- 2016-cı ilin apreli bizim qürur yerimiz, tariximiz və qalibiyyətimizdir, - deyən natiq müəllifi olduğu layihə barədə ətraflı məlumat verərək qeyd etdi ki, yeniyetmə rəssamlar aprel döyüşlərində işğalçı Ermənistan ordusunun təxribatlarının qarşısını alarkən şəhidlik zirvəsinə ucalan əsgər və zabitlərimizin portretlərini çəkməzdən öncə qəhrəman döyüşçülərimiz haqqında geniş məlumatlar əldə etdilər. Tanınmış jurnalist Aida Eyvazlının aprel şəhidlərindən bəhs edən "Qalibiyyət - şəhidlər və şəhidlər" kitabından faydalanaraq qəhrəmanlarımızın obrazlarını daha dolğun canlandırdılar.

Layihənin mahiyyətindən danışan Ceyhun Musaoğlu qeyd etdi ki, məqsəd şəhid ailələrinə mənəvi dəstək olmaqla yanaşı, hərbçilərimizin qəhrəmanlığını rəsmlərdə əbədiləşdirmək, gələcək nəslə vətənpərvərlik ruhu aşılamaq, yeniyetmələri dövlətçilik ənənələrinə daim sadiq qalmağa, azərbaycançılıq məfkurəsinə söykənərək yaşayıb-yaratmağa, Vətən uğrunda canlarından keçən şəhidlərlə qürur duymağa ruhlandırmaqdır.



Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Aprel döyüşləri Azərbaycan Ordusunun yeni parlaq qələbəsidir" adlı məruzəsində bu tarixi zəfərin Azərbaycan dövlətinə, xalqımıza və cəmiyyətimizə böyük qələbə qazandırdığını, bu qələbəmizdən sonra düşmənin hələ də özünə gələ bilmədiyini, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun bütün Ermənistanı sarsıtdığını vurğulayaraq üzünü şəhid valideynlərinə tutaraq bildirdi ki, aprel döyüşlərində qəhrəmancasına şəhid olmuş əsgər və zabitlərimiz qalibiyyətin şəhidləridir. "Belə qəhrəmanlar böyüdən ailələr cəmiyyətimiz üçün hər zaman nümunədir. Bütün şəhid övladlarımızın ruhları qarşısında baş əyirik".

Azərbaycan Dövlət Uşaq Filarmoniyasının direktoru Dilarə Əliyevanın yeniyetmə rəssamların aprel qəhrəmanlarının portretlərini çəkərkən ali hisslər yaşadıqlarını və bu yaşantılarını rəsm əsərlərində göstərməyə çalışdıqlarını dilə gətirdi.

Millət vəkili Dilarə Cəbrayılova gənclərimizin Vətəni aprel döyüşlərinin qəhrəmanları kimi sevəcəklərinə inandığını dedi:

- Xalqımız qəhrəman xalqdır. Bu torpaqlarda Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişib, yetişir və yetişəcək. Aprel döyüşləri bir daha dövlətimizin, ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdi.

Tədbirin sonunda yeniyetmə rəssamlar diplom və hədiyyələrlə mükafatlandırıldı.

Aprel döyüşləri qəhrəmanlarının portretləri muzeyə hədiyyə olundu.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Yasamal rayonunda gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin gücləndirilməsinə diqqət yetirilir





*Yasamal rayon İcra Hakimiyyətinin, rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına müvafiq olaraq, gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinə həsr edilmiş tədbir keçirilib.*

AZƏRTAC xəbər verir ki, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində keçirilmiş tədbirdə çıxış edən rayon gənclər və idman idarəsinin rəisi İlham Səfərov Prezident İlham Əliyevin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının prioritetlərindən birinin azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin qorunmasında vətənpərvərlik tərbiyəsinin yeri və rolu əvəzsizdir. O, gənclərin Azərbaycanın milli-mədəni irsi və tarixi haqqında məlumatlandırılması, vətənpərvərlik tərbiyəsi sahəsində yeni layihələrin reallaşdırılması, gənclərimizin hərbi xidmətə həvəsləndirilməsi, müasir texnologiyalar vasitəsilə Azərbaycan tarixinin gənclər arasında öyrənilməsində virtual imkanların yaradılması məsələlərindən danışıb.

Yasamal rayon İcra Hakimiyyəti başçısının birinci müavini Səməd İslamov qeyd edib ki, hazırda Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Dövlətimizin başçısı İlham Əliyevin "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq edilməsi haqqında Sərəncamı gənclərə göstərilən dövlət qayğısının davamıdır. Gənclərimiz bütöv və müstəqil Azərbaycan naminə səylə çalışmalı, öz siyasətində onlara arxalanan Azərbaycan Prezidenti İlham Əliyevin etimadını doğrultmalıdırlar. Dövlət Proqramı əhatə etdiyi dövrdə ölkə gəncliyinin və müxtəlif dövlət qurumlarının fəaliyyəti üçün istiqamətverici sənəd olacaq və gənclərimizin inkişafında mühüm rol oynayacaq.

S.İslamov Azərbaycan Prezidentinin gənclərin asudə vaxtlarının səmərəli təşkilinə göstərdiyi diqqət və qayğı nəticəsində bu sahədə bir sıra uğurların əldə olunduğunu vurğulayıb. Bildirib ki, Dövlət Proqramının qəbul edilməsində əsas məqsəd ölkəmizdə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq və bütün sahələrdə gənclərin fəal iştirakına şərait yaratmaqdır.

Bakı şəhər Gənclər və İdman İdarəsinin rəisi Raqif Abbasov, "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin əlaqələndiricisi Nurəddin Mehdiyev, Dövlət Təhlükəsizliyi Xidmətinin Yasamal rayon idarəsinin rəisi İlham Qasımzadə çıxışlarında Dövlət Proqramının əsas vəzifələri sırasında dayanan gənclərin azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsindən, milli-dini dözümlülük, sülhsevərlik, humanizm dəyərlərinin təbliğindən və sağlam həyat tərzindən bəhs ediblər.

Sonra Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin və Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun birgə əməkdaşlığı çərçivəsində hazırlanmış "İrəvan: gizlədilmiş həqiqətlər" adlı sənədli filmi nümayiş etdirilib.

Sonda "Muğam müsabiqəsi" laureatlarının ifasında "Qarabağ şikəstəsi" ifa olunub.

## ANAMA Cocuq Mərcanlıda aparılan təmizləmə əməliyyatları barədə məlumat yayıb

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) noyabrın 29-da Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin ətrafında olan və suvarma kanalının çəkilməsi nəzərdə tutulan ərazilərdə aparılan təmizləmə əməliyyatları barədə məlumat yayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, Cocuq Mərcanlı kəndində gün ərzində 49 min 300 kvadratmetr ərazi tam təmizlənib, 20 min kvadratmetr ərazi isə xüsusi mexaniki vasitələrlə təmizlənmə üçün hazırlanıb. Mina və partlamamış hərbi sursat aşkarlanmayıb. Əməliyyatlarda 56 nəfərlik şəxsi heyət iştirak edir.

Ümumilikdə, 13 gün ərzində 9 ədəd partlamamış hərbi sursat (PHS) (1 ədəd F-1 əl qumbarası, 1 ədəd UZRQM partladıcısı, 2 ədəd RQ-42 əl qumbarası, 2 ədəd TM-62 minasının gücləndiricisi və 3 ədəd tank əleyhinə idarə olunmayan raket (PQ-7)) və 1 ədəd piyada əleyhinə mina (OZM-72) aşkarlanıb, 349 min 530 kvadratmetr ərazi tam təmizlənib, 106 min 900 kvadratmetr ərazi isə xüsusi mexaniki vasitələrlə təmizlənmə üçün hazırlanıb.

Ərazinin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi əməliyyatı davam etdirilir.

# Kitablar mənim dostumdur



*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin kitabxanasında hərbi qulluqçuların milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət hisslərinin təbliği məqsədilə "Mütaliəyə marağın artırılması" mövzusunda tədbir keçirilib.*

Ulu öndər Heydər Əliyevin və Vətən torpaqlarının azadlığı uğrunda canlarını fəda etmiş müqəddəs şəhidlərimizin ruhunun bir dəqiqəlik sükutla anılması ilə başlayan tədbiri giriş sözü ilə açan Zabitlər Evinin kitabxana müdiri Zəminə Xınalı belə tədbirlərin müntəzəm keçirilməsinin zəruriliyini vurğuladı. O, çıxışında Ümummilli Liderimizin ölkəmizdə kitabxana şəbəkəsinin yaradılmasında böyük xidmətlərini qeyd etdi. Şair və yazıçılarımızın əsərlərinin dünya xalqlarının dillərinə tərcümə edilməsinin də ilk təşəbbüskarının Heydər Əliyevin olduğunu diqqətə çatdırdı. "Ümummilli Lider və onun layiqli davamçısı Prezident İlham Əliyevin sərəncamları ilə yenidən dərc olunan klassik ədəbi nümunələrimiz, Azərbaycanın hərb tarixindən bəhs edən kitablar, dünya ədəbiyyatı, poeziya, hekayə, folklor, Azərbaycan tarixindən bəhs edən kitablar, uşaq ədəbiyyatı və s. kitabxanamızı daha da zənginləşdirib", - Zəminə Xınalı çıxışını bitirdi.

Sonra tədbirdə çıxış edən Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin Təbliğat və Hərbi Kütləvi iş bölməsinin rəisi kapitan Ramil Qasımov kitabların insan həyatında önəmindən, gənc nəslə mənəvi dəyərlərimizin aşılanmasında rolundan bəhs etdi. Hal-hazırda Azərbaycanda gənclərin mütaliəyə olan marağını müsbət dəyərləndirdi.

Sonda Silahlı Qüvvələrin Mahnı və Rəqs ansamblının rəisi, Əməkdar Mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev də söz alıb vaxtaşırı belə maarifləndirici tədbirlərin keçirilməsinin əhəmiyyətli olduğunu bildirdi və bu tədbirin ərsəyə gəlməsində əməyi keçən hər bir kəsə dərin minnətdarlığını bildirdi.

Gənc muğam ifaçılarımız öz ifaları ilə tədbirə rəng qatdılar.

Mərkəzi Zabitlər Evinin kitabxanası tərəfindən qonaqlara kitablar hədiyyə olundu.

10 mindən çox kitabı olan bu kitabxanada Atatürk Mərkəzinin rəhbəri akademik Nizami Cəfərov, xalq şairləri Fikrət Qoca, Nəriman Həsənzadə, xalq yazıçıları Anar, Çingiz Abdullayev, şair-publisist Rəşad Məcid, Hüseynbala Mirələmov, Əlirza Xələfli, professor Teymur Əhmədov, o cümlədən məşhur xeyriyyəçi Ağa Musa Nağıyevin nəvəsi Dilarə Nağıyeva tərəfindən hədiyyə edilən qiymətli əsərlər vardır.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Ovqat*

# Məqam həmin məqamdı, Azərbaycan əsgəri!



Neçə gündü qəzetimizin ötən sayında dərc edilən “Əsgər oğluma məktub”unun cazibəsindəyəm. Bu məktub həm də ana ilə oğulun səmimi kəlmələşməsidi; qürur da hiss ediləndi, ana həyəcanı, ana narahatlığı da. Bu narahatlıq ötəri narahatlıqdı. Aylar ötüşdükcə bu özülsüz narahatlıq sovuşacaq, oğlunun hərbi xidməti ana ürəyini tellendirəcək...

Əsgər anasının əsgər oğluna yazdığı məktubu həyəcansız oxumaq mümkün deyil. Bu duyğusal məktub əsgərlərimizin qətiyyətini ovxarlayacaq, çağırışçılar əsgər olacağı günə tələsəcək, yeniyetmələr tez böyümək istəyəcək.

Bu məktubun hər cümləsində Vətən var, torpaq var, ana öyüd-nəsihəti var, Vətənə ad olan gərəkli xatırlamalar var. Bu öyüd-nəsihətləri, xatırlamaları ruhumuzun min illərin o üzündən süzülüb gələn işığı bilirəm. Bu işıq "Varıq!" deyir, "Var olacağıq!" deyir. Bir də Şərafət ananın timsalında bütün analara deyir ki, işğaldan azad edəcəyimiz torpaqlarımızın yaraları qalib əsgərlərimizin nəfəsiylə qaysaqlayacaq...

Dövlətçiliyimizin ilk davulu səslənən gündən əli silah tutanlarımız bu işığın yaşarılığı üçün heç zaman can əsirgəməyib. İndən belə də əsirgəməyəcəyinə əminlik, inam ruhuma, ruhumuza sarılır. Bu möhtəşəm qovuşmadan qələbə ətri gəlir. 2016-cı ilin aprelində Azərbaycan əsgəri təsdiqlədi ki, məqamında Vətən üçün can əsirgəmir. Lələtəpə, Bayraqtəpə indi yaşarı, bəşəri ruhumuzun işığında elə əzəmətlə görünür ki! Dövlət bayrağımız bu yüksəkliklərdə elə əzəmətlə dalğalanır ki!

Ölümünə qənşər gələn ermənilər təxribatlar törətmək istəyəndə Azərbaycan əsgəri canını torpaqlarımıza sipər edir; o ananın oğlu da, o ananın oğlunun əsgər yoldaşları da bu məktubun rişələndiyi işığı yaxın vaxtlarda Böyük Qələbəyə qovuşduracaq. Ananın əsgər oğluna məktubu bu inama söykənib. Əsgər anasının inamı inamımızdı, güvənci güvəncimiz...

Əsgər anasının məktubu ANA nəfəsidi, ANA səsidi - İran hökmdarı Kirin yaşamına ölüm qılıncı vuran Tomrisin səsidi, fateh İsgəndəri heyrətləndirən Bərdə hökmdarı Nüşabənin səsidi, Qıpçaq Məliyin namərdliyini mərdanəliklə cavablandıran Burla xatunun səsidi, Ağqoyunlu hökmdarı Uzun Həsənin anasının - Şərqin ilk diplomat qadını olan Sara xatunun səsidi, milli-xəlqi ruhumuzun - fəzilətlərin, bəşəriliyin səsidi. Bu səsdə meh həzinliyi də var, şimşək qəzəbi də. Bu səsdə ilahilik də var, qüdrət də. Bu səsdə şəhidlərimizə görə eşidilməyən, hiss olunan sıxıntı da var, qazilərə görə qürur da...

Uşaqlığımızda hamımız taxta qılınclarla, taxta avtomatlarla "silahlanıb" "dava-dava" oynayardıq. Məhəllələr qələbə sevincinə darlıq edərdi. Onda dünyanın düz vaxtıydı. Onda hələ ermənilik baş qaldırmamışdı, ermənilik niyyəti qınından çıxmamışdı, onda hələ ermənilər "kiçik budaqlarda oturub böyük budaqları silkələmirdi" (E.Baxış). Əsgər anasının oğlunun da uşaqlığı belə keçib. Əlində sıyırma qılınc, zamanında "Siz yatın, mən sizi qoruyacam, əjdahaları öldürəcəm!" - deyən uşaq indi əsgərdi, Vətəni qoruyur. Taxta qılıncıyla "divləri, əjdahaları öldürən" uşaq indi təxribat törətmək istəyən düşmənin başına odlar ələyir. ANA-nın "İndi həmin məqamdı, oğul!" - kəlmələri oğlunu da, oğlunun əsgər yoldaşlarını da Vətən naminə şücaət göstərməyə - Yusifləşməyə, Vəzirləşməyə, Mübarizləşməyə, Samidləşməyə, Çingizləşməyə,... çağırır.

Əsgər anasının məktubu, onsuz da ürəyi Vətənlə döyünən əsgərlərimizi vətənləşdirmək istəyidi. Bu istək ANA murazıdı, bu muraz ərazi bütövlüyümüzün təmin edilməsini, əsgərlərimizin döyüş növbətçiliyini dövlət sərhədlərimizdə aparması niyyətidi. Bu duyğusal məktubun mahiyyəti deyir ki, ANA niyyəti Vətənin niyyətidi...

Böyük Vətən müharibəsində Faxralıda yaşayan Sənəm Allahverdi qızı oğluna yazıbmış ki, "Kürəyindən yaralansan, südümü sənə halal etmərəm". Səməd döyüşdə yaralanmışdı. Kürəyindən yox, sinəsindən yaralanmışdı. Ürəyinə "bitişikli" qəlpələr yaşadan veteran ahıl yaşlarında deyərdi ki, anamın məktubunu komandir hamıya oxudu. "Belə anaların oğlusunuz, cəsarətlə vuruşun, Vətən üçün vuruşun!" Vuruşduq, qələbə qazandıq...". "Məni qoruduğun kimi Vətəni də qoru!" - deyən ana da, "Kürəyindən yaralansan, südümü sənə halal etmərəm" - deyən Sənəm Allahverdi qızı da tarixin cığırdaşı olan bir xalqın qeyrət timsalıdı, Azərbaycan əsgəri! Bu məktub həm də ana harayıdı, ananın oğlunu, oğlunun əsgər yoldaşlarını Qarabağa çağıran harayıdı:

*Dan sökülür...*
*Analar*
*Mərmilərin diddiyi,*
*Əzdiyi hər dağ üçün,*
*Göyüm-göyüm göynəyən*
*yaralı torpaq üçün*
*Qarabağa çağırır:*
*Məqam həmin məqamdı,*
*Azərbaycan əsgəri!*

...Əsgər anasının məktubunun işığında Cəfər Cabbarlının "Ana" şeirini, şeirin son misralarını xatırlayıram:

*Ana, mən sənə*
*rahibəm itaətdə...*

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# İdman

## Güləşçilərimiz U-23 dünya çempionatını beş bürünc medalla başa vurublar



Polşanın Bıdqoş şəhərində güləş üzrə U-23 dünya çempionatına yekun vurulub.

19-23 yaşlı idmançılar arasında ilk dəfə keçirilən çempionatı yığma komandamızın üzvləri 5 bürünc medalla başa vurublar.

İlk iki yarış günündə yunan-Roma güləşçiləri mübarizə aparıblar. Komandamızın üzvlərindən Sakit Cəlilov (59 kq) və İslam Abbasov (85 kq) bürünc medal qazanıb. Nəsir Həsənov (75 kq) isə beşinci yerdə qərarlaşıb.

Qadın güləşçilərin mübarizəsini də yığmamızın üzvləri 2 bürünc medalla tamamlayıblar. Türkan Nəsirova (58 kq) və Tatyana Omelçenko (60 kq) fəxri kürsünün üçüncü pilləsində qərarlaşıblar. Alyona Kolesnik (58 kq) isə beşinci yeri tutub.

Son yarış günlərində mübarizəyə qoşulan sərbəst güləşçilərin qazancı isə 1 bürünc medal olub. Çempionatda 57 kiloqram çəkidə yarışan Pərviz İbrahimov çempionatı üçüncü sırada tamamlayıb.

## Ağır atletika üzrə Azərbaycan kuboku uğrunda turnir keçiriləcək




Dekabrın 2-3-də ağır atletika üzrə Azərbaycan kuboku turniri keçiriləcək.

Yarışda şəhər və rayonlardan, idman klub, cəmiyyət və mərkəzlərindən, UGİM-lərdən hazırkı əsasnamə üzrə təyin olunmuş dərəcə normalarını yerinə yetirən və tibbi müayinədən keçən yüzə yaxın atlet qüvvəsini sınayacaq.

Azərbaycan kubokunun keçirilməsində məqsəd atletlərin hazırlıq vəziyyətinin yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsidir.

Turnir Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasının yarış zalında keçiriləcək.

## “Neftçi” klubu Azərbaycan kuboku yarışlarında böyük hesablı qələbə qazanıb



Futbol üzrə Azərbaycan kuboku yarışlarının səkkizdəbir final mərhələsinin növbəti görüşündə "Neftçi" doğma meydanda "Zaqatala" klubunu qəbul edib.

Baş hakim Rəşad Əhmədovun idarə etdiyi matçın ilk hissəsinin əvvəlində meydan sahibləri erkən qola seviniblər. Matçın səkkizinci dəqiqəsində Daniel Seqovia hesabı açıb. Görüşün 35-ci dəqiqəsində Daniel Seqovia dubl edib - 2:0. İlk hissə bu hesabla başa çatıb.

Fasilədən sonra paytaxt təmsilçiləri qonaqları üçüncü dəfə oyuna meydanın mərkəzindən başlamağa dəvət ediblər. Görüşün 50-ci dəqiqəsində Uqo Barqas 11 metrlik cərimə zərbəsindən qayıdan topu rəqibin qapısından keçirib.

Oyunun 54-cü dəqiqədə Daniel Seqovia het-trikə imza atıb. Matçın 59-cu dəqiqəsində Emin Mahmudov diqqət mərkəzində olub - 5:0.

Beləliklə, oyun "Neftçi"nin 5:0 hesablı qələbəsi ilə yekunlaşıb və komanda dörddəbir finala yüksəlib.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Hüseynov Sərvan Tapdıq oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Xəlilov Fərmayıl Qədir oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Hərbi ənənələr, yeniliklər*

# Qoruyucu “TOP” dəbilqəsi





Qoruyucu "TOP" dəbilqəsi döyüşçünün baş hissəsini odlu silah və mərmilərdən qorumaq üçündür. Dəbilqə qoruyucu karkasdan və enerjini udma qabiliyyətli polimer əsasında hazırlanmış amortizasiya və asılma sistemindən ibarətdir. "TOP"-un karkası aramid adlanan materialdan hazırlanıb. Fərdi olaraq başın ölçüsünə görə seçilməsi amortizasiya sisteminin balışının seçilməsi və asılma sisteminin tənzimlənməsi ilə həyata keçirilir. Dəbilqə müxtəlif asma cihazlarından istifadə üçün uyğunlaşdırılıb. Gecə görmə cihazı və universal yan lövhələrin bərkidilməsi üçün yer də vardır. Sinfindən asılı olaraq çəkisi 1,4-2,2 kiloqrama qədərdir. Onun qorunma sahəsi 13,4 kv.dm təşkil edir. "TOP" dəbilqəsi müxtəlif hava şəraitində istifadə olunur. 40 dərəcə isti, 40 dərəcə soyuq havada və atmosfer çöküntüləri zamanı da işləmə qabiliyyətini qoruyub saxlayır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**



| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | leytenant Orxan HÜSEYNLİ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 667 Nüsxə 4600 |